***Şamil Nadir oğlu Nəcəfov***
*aparıcı elmi işçi, t.ü.f.d.*
*shamil_necefov@mail.ru*

***Vaqif Arif oğlu Əsədov***
*aparıcı elmi işçi, t.ü.f.d.*
*Vaqif-amea@rambler.ru*

***Gülpəri Ramin qızı Əhmədova***
*kiçik elmi işçi*
*gulperi_akhmedova@mail.ru*

***Mətanət Məhəmməd qızı Hüseynova***
*kiçik elmi işçi*
*metanet-akademiya@mail.ru*

*AMEA Arxeologiya və Enoqrafiya İnstitutu*

# ƏMİRARX ORTA ƏSR YAŞAYIŞ YERİNİN ŞİRLİ KERAMİKA MƏMULATI

***Açar sözlər:*** şirli keramika, yaşayış yeri, Əmirarx, orta əsrlər

***Ключевые слова:*** глазурованные керамика, поселения, Амирарх, средневековый период

***Key words:*** glazed ceramic, settlement, Amirarkh, Medieval period

Əmirarx orta əsr yaşayış yeri Ağdaş rayonunun Əmirarx kəndinin ərazisində, hazırda kənd sakinlərinin istifadəsində olan əkin sahələrinin içində yerləşir. Yaşayış yeri yeni infrasturktur layihəsi olan Cənubi Qafqaz boru xəttinin genişləndirilməsi (SCPX) layihəsi üzrə qaz kəməri marşrutunun çəkilişi zamanı aşkar olunmuşdur. Kəmər marşrutunun 182-ci km-də yerləşən bu abidə tikinti işlərindən əvvəl aşkar edilmiş və abidənin ərazisində təxirəsalınmaz qazıntı işləri aparılmışdır [1]. Burada aparılmış ilkin vizual arxeoloji kəşfiyyat işləri nəticəsində çoxlu miqdarda yerüstü material əldə edildiyi üçün həmin ərazidə, yəni boru kəmərinin dəhlizində arxeoloji abidənin olduğu müəyyənləşmiş və bu sahədə arxeoloji qazıtı işlərinə başlanılması qərarına gəlinmişdir.

Əmirarx yaşayış yerində arxeoloji qazıntılar 2015-ci ilin 10 sentyabr-17 oktyabrında aparılmışdır. Qazıntıar üçün 96 metr uzunluğunda, 4x4 metr ölçüdə ümumilikdə 24 kvadratdan ibarət sahə ayrıldı. Qazıntı üçün ayrılmış sahənin üst hissəsi - əkin işləri zamanı şumlanmış 20 sm qalınlıqda torpaq qatı texnika vasitəsilə götürüldükdən sonra qazıntılara başlanıldı [1]. Götürülən üst qat əkilmiş olduğundan arxeoloji materiallarla zəngin deyildi. Qazıntılar ardıcıllıqla bütün kvadratlarda, yer səviyyəsindən 1-1,2 m dərinliyədək aparıldı. Artıq ilk təbəqədən (40 sm) başlayaraq şirli və sadə keramika fraqmentləri üzə çıxdılar. Qazıntılar dərinləşdikcə onlara bişmiş kərpic qırıqları, dəmir məmulatların hissələri, daş alətlər, osteoloji qalıqlar da əlavə olundular. Qeyd edək ki, qazıntı sahəsində arxeoloji qazıntı işləri mədəni təbəqə yatımının son dərinliyinədək davam etmiş və bütün dərinliklərdən artefaktlar əldə olunmuşdur [1].

Qazıntılar zamanı qeydə alınmış yüzlərlə maddi mədəniyyət nümunələri içərisində əhəmiyyətli yeri saxsı qab nümunələri tutur. Təyinatına görə boşqab, xeyrə, sini, vaza, kuzə, bardaq, dopu, küpə, çıraq, qapaq və s. kimi gil qabların fraqmentlərini əks etdirən artefaktlar mənsub olduğu dövrün sakinlərinin mətbəx-məişət mədəniyyətinin göstəricisidir. Əksər hissəsi böyük ustalıqla və keyfiyyətli hazırlanmış bu qab fraqmentləri içərisində əsasən vaza, boşqab və kasa tipli qablara məxsus olan şirli qab qırıqları xüsusən seçilirlər [1]. Üzəriləri rəngarəng boyalarla nəbati və həndəsi naxışlarla bəzədilə-

rək şirlənmiş bu qablar onlara rəng vuran ustaların yüksək bədii zövqündən xəbər verir. Qeyd edək ki, qazıntılar zamanı az miqdarda olsa da bütöv və yarıbütöv qablara da təsadüf olunmuşdur.

Gil qab fraqmentlərindən aydın olur ki, burada gil məmulatının böyük hissəsini şirli qab nümunələri təşkil edir. Lakin şirsiz və boyalı qab nümunələri də az tapılmamışdır [1].

Əmirarx yaşayış yerindən tapılmış şirli qab nümunələri isə say baxımından çox olmaqla yanaşı naxış elementi baxımından da çox rəngarəngdir. Bəzi nümunələrə diqqət yetirək:

Şirli kasanın fraqmentinin içəri tərəfdən marqansla bəzədilərək üzərinə şir çəkilmiş qaba məxsusluğu müəyyən edilir. Bəzi kasaların ağzı içəri qatlanmış, gövdəsi oturacağa doğru daralmışdır [1]. Onlar da daxildən anqob və marqans zolaqlarla bəzədilmiş, şəffaf şirlə şirlənmişdir. Bəzi kasaların ağzının qırığı şir altından marqans zolaqlarla bəzədilmişdir. Bir kasa nümunəsinin səthi nazik cızma xətlə salınmış tor naxışı, marqans və mis oksidi ilə vurulmuş ləkələrlə bəzədilərək sarı şirlə şirlənmişdir.

-diskşəkilli oturacağı olan duzqabının qırığı içəri tərəfdən yaşıl rənglə bəzədilmiş, şəffaf şirlə bəzədilmişdir.

-düz ağzı, alçaq divarı qatlanaraq oturacağa doğru daralan nimçənin qırığının xarici səthində üç paralel xətt qazılmışdır. Daxili tərəfdə nazik cızma xətlə naxışlamış marqans ləkələrlə canladırılmış, marqans xətlərdən ibarət düzüm nimçənin kənarınada vurulmuşdur. Qab rəngsiz şirlə şirlənmişdir

-dəyirmi gövdəsi, alçaq gen boğazı, düz ağzı olan şirli çırağın fraqmenti. İçəri tərəfi yaşıl şirlənmişdir.

-kasa və ya boşqab ağzının qırığı olub içəri tərəfi nazik cızma spiralvari naxışla bəzədilərək yaşıl ləkələrlə canlandırılmış açıq sarı rəngli şirlə rənglənmişdir.

-oturacağa doğru daralan gövdəsi, alçaq divarı, düz ağzı olan kasa tipli qabın qırığı olub, bayır tərəfdən divarına qazıma xətt salınmışdır. İçəri tərəfdə divarına horizontal anqob zolaq və onu kəsən marqans zolaq çəkilmiş, qab rəngsiz şirlə şirlənmişdir.

-nimçə tipli qabın qırığı olub, içəri tərəfdən marqansla və mis oksidi ilə (yaşıl rənglə) həndəsi naxış çəkilmiş, qab rəngsiz şirlə şirlənmişdir. Bəzi yerlərdə şir tökülmüşdür.

-alçaq, halqavari oturacaqlı qaba məxsus bir fraqment nazik cızma naxışla bəzədilərək yaşıl şirlə şirlənmişdir. Lakin şir tökülmüşdür.

-alçaq, halqavari oturacaqlı, yarımkürəvi, düz ağızlı boşqabın yarısı olub, bayır tərəfdən ağzının kənarı qazıma xətlə hüdudlanıb. İçəri tərəfdən anqob, marqans və mis oksidi ilə çəkilmiş zolaqlar həndəsi naxış yaradır. Qab açıq sarı şirlə şirlənmişdir.

-nimçə tipli qabın fraqmenti olub, içəri tərəfdən nazik cızma xətlərlə, ağzının kənarı isə marqans ləkələrlə bəzədilmişdir.

-orjinal forması ilə fərqlənən ikiqatlı piydan. Onun altlığı yastlı oturacaqlı, şişman gövdəli, gen boğazlı dopu formasındadır. Gövdəsində simmetrik 4 deşik açılmışdır. Piydanın üst qatı dərin piyalə şəklində olub, ağzının kənarında novça şəklində çıxıntı var. Açıq sarı şirlə şirlənmişdir.

-diskşəkilli oturacağı, yanlara açılan nazik divarları olan piyalənin qırığı. İçəri tərəfdən marqans və mis oksidi ilə mərkəzdən kənarlara yayılan şüalar formasında zolaqlarla naxışlanmış və şirlənmişdir.

-boşqab və ya kasa tipli qabın divarının qırığı olub, içəri tərəfdən cızma üsulu ilə spiral şəkilli naxışla bəzədilmiş, naxış marqans və yaşıl nöqtələrlə canlandırılmışdır. Qab şəffaf şirlə şirlənmişdir.

-yarımkürəvi, düz ağızlı piyalənin fraqmenti. İçəri tərəfdən marqans və mis oksidi ilə zolaqlar çəkilmiş həndəsi naxışla bəzədilmiş və şirlənmişdir.

Tapıntılar içində üzəri yaxşı şüyrələnmiş, dişli alətlə naxışlanmış və yapma düyməciklərlə bəzədilmiş qırmızı boyalı saxsı qabın qırığı təmiz gil tərkibli olub, yüksək ustalıqla hazırlanmışdır. Silindirik boğazı yana qatlanaraq çiynə keçən bardağın qırığına nəzər saldıqda isə görürük ki, çiyinindəki qurşaq batıqlar düzümü ilə canlandırılmış, gövdəsindəki qurşaq isə cızma xətlə bəzədilmiş, çiyin və boğaza qırmızı boya çəkilmiş-

dir. Qırmızı rəngli səhəng tipli qabın üzərində isə boya elementi səpələnmiş vəziyyətdədir [1]. Boyalı qaba məxsus qulp qırığı isə balıq fiquru formasında olması ilə diqqəti cəlb edir. Sanki, balığın quyruğu qatlanaraq cəftəvari qulpu yaradır. Fiqurun üzərindəki cızma naxışlar balığın pulcuqlarını əks etdirir. Balığın gözünü bildirmək üçün qulpun ucunda deşik açılmışdır. Qulp keyfiyyətli bişirilmiş, saxsısı sıx, rəngi çəhrayı qaba məxsusdur. Üzərinə qırmızı boya çəkilmişdir.

Keramika məmulatının əksəriyyəti keyfiyyətli hazırlanmış, gil tərkibi təmiz olub, yaxşı bişirilmişdir. Tapılmış keramika nümunələri müxtəlif ölçülü və formalı olub məişət və təsərrüfat xarakterlidir [1]. Bütöv qab nümunələrinə az rast gəlinmişdir. Küpələr sınıq vəziyyətdə olub qırıqları tapılmışdır. Fraqmentlərdən aydın olur ki, küpələrin dar, yastı oturacağı, armudvari gövdəsi, dar və silindirik boğazı, yana qatlanmış ağzı vardır. Bir qayda olaraq onların gövdəsini ornamental kəmər qurşaqlayır. Küpələr əsasən orta dərəcə keyfiyyətdə bişirilmiş, saxsısı sıx, rəngi qonur, qəhvəyi və ya qırmızı-kərpicidir. Küpələrin gövdəsini qurşaqlayan ornamental kəmərdə daha çox cızma və qazıma üsulu ilə salınmış dalğalı xətlərə rast gəlinir. Küpələrin ağzının kənarını isə bir qayda olaraq qabırğavari girintili-çıxıntılı relyefli naxış bəzəyir.

Kiçik tutumlu küpə qırıqları arasında gövdəsini qurşaqlayan yapma kəməri girintili-çıxıntılı, sünbülvari naxışlarla bəzədilmiş fraqmentlər də vardır. Bir neçə nümunə isə kiçik tutumlu küpələrin üst hissəsini təmsil edir [1]. Onlardan biri ağzı yana qatlanmış, yuxarıya doğru daralan boğazı, maili çiyni olan nüsxəyə məxsusdur. Gilinin tərkibində qum qarışığı vardır, orta keyfiyyətdə bişirilmişdir. Saxsısının rəngi çəhrayı-qonurdur.

Tapılmış keramika nümunələri qırmızı, boz, qara, qonur rənglərdə olub, əsasən şirlidir. Saxsı qab qırıqlarından bəziləri nazik divarlı, darboğazlı bardaqlara məxsusdur. Belə bardaqlardan birinin ağzı yana qatlanmış, darboğazı çiynə keçir. Ehtimal ki, gövdəsi şişman olmuşdur. En kəsiyi dairəvi formada olan qulp ağızla çiyin hissəsini birləşdirmişdir. Ağıza yaxın yerdə qulpun üstündə xırda çıxıntı vardır. Dalğalı xətlərin qalxan və düşən nöqtələrinə yapma düyməciklər yapışdırılmışdur. Qabın gövdəsinə cızma üsulu ilə paralel üfüqü xətlər çəkilmiş, səthinə şaquli çərtmələr vurulmuşdur. Saxsı məmulatı arasında kasa, boşqab və xeyrələr kəmiyyətcə üstünlük təşkil edir [1]. Onlar formasına, ölçülərinə, naxışlanmasına, eləcə də bişirilmə vəziyyətinə görə bir- birindən fərqlənirlər.

Yarımdairə formasında bayıra açılan ağzı, gen boğazı, maili çiyni olan qab fraqmentlərinin ağzının kənarına və boğazdan çiynə keçiddə çərtmələr ondan aşağıda isə cızma həndəsi naxışlar salınmışdır. Gilinin tərkibində qarışıqlar vardır. Rəngləri qırmızıdır. Tapılmış bardaq və kuzə qırıqları kiçik fraqmentlərlə təmsil olunurlar. Dopu qırıqları da az deyil. Onlar düz ağzı, gen boğazı, aşağıya doğru daralan gövdəsi, ağzının kənarına və gövdəyə birləşən qulpu olan dopulara məxsusdur. Tapıntılar arasında kasa və piyalə tipli qab fraqmentləri də vardır. Onlardan düz ağzı, qıf formasında bayıra açılan divarları, gövdənin aşağı hissəsində qatlanaraq oturacağa doğru daralan kasa tipli qab nümunələri keyfiyyətli hazırlanması, sabit tempraturda bişirilməsi ilə diqqəti cəlb edirlər [1].

Keramikaların bir qrupunun gil tərkibi təmizdir və iki rənglə müşayiət olunurlar. Daxildə bir rəng, hər iki üzündə isə fərqli rənglər vardır. Çünki, od sabit olmadığından daxildəki gil təmiz bişməmişdir. Ona görə də belə rəng buraxmışdır.

Bəzi keramikalar da vardır ki, onlar sabit tempraturda, yəni dəyişməz od şəraitində bişirilsələr də gil tərkibləri qarışıqdır. Bu tip keramikaların bəzilərinin üzəri yaxşı cilalanmışdır. Cilalanma ona görə həyata keçirilmişdir ki, onların üzəri yaxşı cilalandıqdan sonra qopuq yerlər tamamilə itsin [2, s.198-200]. Təmiz gil tərkibli keramikaların qarışığı olmur [3, s.538]. Lakin, qarışıq gil tərkibli keramikaların tərkibində gillə yanaşı torpaq, narın qum və kiçik çınqıl qarışığı vardır. Bu keramikaların aid olduğu gil qablar yaxşı vəziyyətdə qalmamışdır.

Gil qab nümunələri üzərindəki naxışlar həm həndəsi, həm də nəbati motivlidir. Yəni

bu naxışlar ya qabın boğazında, ya da gövdəsində çəkilmiş maili, düz, dalğalı formada olan nöqtələrdən, düz və daraqvari naxışlardan, yapma naxışlardan, ağac, gül, quş təsvirlərindən və s. ibarətdir. Şirli qabların bəziləri daxildən bölmələrlə ayrılaraq növbəli şəkildə həndəsi və nəbati təsvirlərlə bəzədilmişdir. Oturacağının mərkəzində çəkilmiş dairə daxilinə nəbati təsvirlər işlənmiş, təsvir ikinci bölmədə çəkilmiş şüavari xətlərlə əhatələnmişdir [4, s.36-38].

Maddi-mədəniyyət nümunələri əhalinin məşğuliyyətində əkinçilik və maldarlığın aparıcı sahələr olduğunu, yerli sakinlərin habelə müəyyən dərəcədə müxtəlif sənət sahələri ilə məşğul olduğunu, oturaq həyat tərzi keçirdiyini təsdiqləyir. Maldarlıq təsərrüfatında iribuynuzlu mal-qaranın bəslənməsinə üstünlük verilirdi. Aşkar olunmuş kürə qalıqları və digər sübutlar burada sənətkarlıq məhsulları istehsalının yerli əhəmiyyət daşımasını, kənd sakinlərinin saxsı qab-qacağa və metal məmulata olan ehtiyacını ödəməyə yönəldiyini göstərir. Məişətdə dulus çarxından hazırlanmış müxtəlif təyinatlı şirli saxsı qablardan geniş istifadə olunmuşdu.

Dəhliz sərhədləri ilə məhdudlaşan qazıntı sahəsində təsərrüfat quyuları, ocaq yerləri və tikili qalıqlarının aşkar edilməsi burada daimi və uzunmüddətli yaşayış yerinin olduğunu düşünməyə əsas verir. Qaranlıq qalan məsələ isə yaşayış yerinin mərkəzinin bilavasitə qazıntı sahəsinin xaricində olub-olmamasıdır. Yaşayış yerinin mərkəzinin qazıntı sahəsinin xaricində olduğunu güman etmək olar, lakin, göründüyü kimi, bunu təsdiqləyən heç bir material yoxdur. Əldə olunmuş məlumat birmənalı şəkildə burada əhalinin, ola bilsin, bir neçə nəsil yaşadığı və sonradan tərk etdiyi kənd tipli kiçik yaşayış yerinin mövcud olduğunu göstərir. Güman etmək olar ki, insanlar yaxınlıqda hansısa yaşayış yerlərinin birinə köçmüşlər.

Əmirarx yaşayış yerində əldə olunmuş arxeoloji materialların təhlili və aparılmış analogiyalar bu yaşayış məskənini ilkin olaraq inkişaf etmiş orta əsrlər dövrünə, yəni XIII-XV əsrlərə aid etməyə imkan verir [1].

Əmirarx yaşayış yerində aparılmış qazıntılar burada qeyd olunan dövrdə kənd tipli yaşayış məskəninin mövcudluğunu sübut edir. Mədəni təbəqənin xarakteri və üzə çıxarılan maddı-mədəniyyət qalıqları yaşayış yerinin sərbəst plan quruluşlu, geniş sahəli kənd tipinə mənsubluğunu özündə əks etdirir.

Yuxarıda göstərilənlərə əsasən boyalı keramikanın bəzi qruplarını xarakterizə etmək olar. Əmirarx dulusçuları üçün anqob və marqans turşusu boyaq rolu oynayırdı və şəffaf rəngli şir altından çəkilmiş rəsmlər əlavə çalarlara malik olurdu. Qeyd etmək lazımdır ki, əllə hazırlanmış bəzi şirsiz qablar istisna olmaqla, Əmirarx yaşayış yerindən tapılmış saxsı qabların böyük əksəriyyəti dulus çarxında hazırlanmışdır. Qabların bəzi hissəsi bilavasıtə göstərilən yaşayış yerində hazırlanırdı.

Əmirarx yaşayış yerində aşkar edilmiş saxsı qab istehsalı fraqmentləri kəndin orta əsr sakinləri tərəfindən istifadə edilən qabların geniş çeşidindən xəbər verir.

Yaşayış yerinin maddi-mədəniyyət nümunlərində yaxınlıqda yerləşən yüksək inkişaf etmiş Gəncə və Ərəş orta əsr şəhərləri sənətkarlığının xüsusiyyətləri izlənilir. Ola bilsin ki, qazıntılar nəticəsində tapılan və çox nəfis hazırlanan bəzi maddi-mədəniyyət nümunələri buraya Gəncə kimi inkişaf etmiş yaxın şəhərdən mübadilə yolu ilə gətirilmiş və yaxud Gəncə sənətkarlığının təsiri altında yerli istehsalın məhsulu olmuşdur [5, s.9-10].

Arxeoloji sahənin saxsı nümunələri dövr etibarı ilə Beyləqan [4; 6, s.224-246], Gəncə, Qəbələ, Bakı, Şamaxı şəhərləri [7] və digər abidələrin mədəni təbəqələrindən aşkar olunmuş dəqiq xronoloji çərçivəyə malik olan materiallarla eyniyyət təşkil edir.

Beyləqanda aşkar edilmiş şirli qabların forma və məzmun müxtəlifliyi A.L.Yakobsona şirli keramikanın elə bir təsnifatını verməyə imkan yaratmışdır ki, bu təsnifatlaşdlrmadan orta əsrlərlə məşğul olan bütün arxeoloqlar istinad mənbəyi kimi istifadə etmişlər [6, s.224-246]. Əmirarx yaşayış yerindən aşkar edilmiş şirli keramika qrupu A.L.Yakobsonun Örənqala şirli saxsısının tipoloji klassifikasiyası üzrə 1-3 qruplarla təsnifatlandırılır [4].

Əmirarxdan aşkar edilmiş bəzi şirli qab

fraqmentlərini daha erkən dövrlərə aid etmək olar. Bu keramika nümunələri XI-XII əsrlərə aid edilir və mavi, yaşıl şirlə örtülmüş, sadə monoxrom boyalı nümunələrlə təmsil olunmuşlar [1]. Bura həmçinin rəngli şir altında ağ anqobla və marqans turşusu ilə boyanmış polixrom piyalələr qrupu da daxildir. V.N.Leviatov Bakı şəhərindəki qazıntıların stratiqrafik laylarından şirli keramikanın bu tiplərini aşkarlamış və onları XI-XII əsrlərə aid etmişdir [8, s.37-39].

Əmirarx yaşayış məskənində təsadüf olunan şirli keramikanın bəzi fraqmentlərinin üzəri oymalıdır. Dekorativ üsul kimi ağ anqobla işlənmiş çevrəli rəsm Örənqaladan olan erkən keramika qruplarında yetərincə geniş təmsil olunub və IX əsrdən başlayaraq bu kompozisiya prinsipi güman ki, Tan dövrünün çin şirli keramikasına borcludur [8, s.38].

Arxeoloji sahədən aşkar olunmuş kompleks şirli keramika nümunələri bütövlükdə imkan verir ki, yaşayış yeri monqol zamanından sonrakı dövrə XIII-XV əsrlərlə aid edilsin.

Arxeoloji sahədəki qazıntıların nəticələrini oxşar xarakterli digər sahələrlə müqayisə etdikdə elə bir fərqli cəhətləri müəyyən edilmir. Əmirarx yaşayış yerindən orta əsrlər dövrü kənd tipli yaşayış məskəninin bütün cəhətlərini özündə əks etdirən təsərrüfat həyatı haqqında dolğun müəyyən məlumat əldə edilmişdir.

## ƏDƏBİYYAT

1. Nəcəfov Ş.N., Əsədov V.A. SCPX infrastruktur layihəsi ilə bağlı kəmər marşrutunun 182-ci km-də yerləşən Əmirarx orta əsr yaşayış yerində aparılmış arxeoloji tədqiqatlar haqqında qısa elmi hesabat. Bakı, 2015
2. Novruzlu Ə.İ. Azərbaycanın orta əsr sənətkarlığı (XIV-XVII əsrlər). Bakı, Elm, 1997
3. Nəcəfov Ş.N., Hacılı Z.C. Daşbulaq orta əsr yaşayış yerinin şirsiz saxsı məmulatı haqqında. "Elmi axtarışlar" XV toplu, Bakı, 2005
4. Əhmədov Q. Örənqala Bakı, 1962
5. Vahidov R.M. Mingəçevir orta əsr yaşayış yeri. Azərb. SSR EA Tarix Institutunun əsərləri. XI cild. Bakı, 1957
6. Якобсон А.Л. Художественная керамика Байлакана (Оренкала) МИА, № 67. М-Л, 1959
7. Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə. Bakı, 2001.
8. Левиатов В.Н. О типах глазурованной керамики Азербайджана в VII-XV вв. Изв АНАз ССР, № 7. Баку, 1946

***Наджафов Шамиль Надир оглы,***
***Асадов Вагиф Ариф оглы,***
***Ахмедова Гюлпери Рамин кызы,***
***Гусейнова Матанат Мухаммед кызы***

## ГЛАЗУРОВАННЫЕ КЕРАМИЧЕСКИЕ ИЗДЕЛИЕ СО СРЕДНЕВЕКОВОГО ПОСЕЛЕНИЯ АМИРАРХ

### *РЕЗЮМЕ*

Средневековое поселение Амирарх расположено на территории села Амирарх Агдашского района, на полевных участках сельских жителей. Оно было выявлено во время проведения газопровода в проекте расширения Южнокавказского провода, являющегося новым инфраструктурным проектом (SCPX). Этот памятник был выявлен на 182 км. маршрута газопровода до начала строительных работ и на территории памятника были проведены безотлагательные археологические раскопки.

Среди сотен образцов материальной культуры, выявленных во время раскопок, важное место занимали обломки керамической посуды. Среди орнаментов этой посуды, изготовленной в основном качественно и с высоким мастерством, особенно выделялись черепки глазурованной посуды типа ваз, тарелок и мисок. Поверхность этой глазурованной посуды орнаментировали разноцветные растительные и геометрические рисунки, что указывает на высокий художественный вкус мастеров - изготовителей посуды.

Раскопки на поселении Амирарх доказывают существование здесь в указан-

ный период поселения сельского типа. Характер культурного слоя и выявленные остатки материальной культуры указывают на принадлежность данного памятника к поселениям сельского типа с простой планировкой и широким участком.

***Najafov Shamil Nadir oglu***
***Asadov Vagif Arif oglu***
***Akhmedova Gulpari Ramin gizi***
***Huseynova Matanat Muhammed gizi***

## THE GLAZED CERAMICS OF THE MEDIEVAL SETTLEMENT AMIRARKH

***SUMMARY***

The medieval settlement Amirarkh located in the village of Agdash region Amirarkh on sown areas of rural residents. It was revealed during the expansion of the gas pipeline project South Caucasus wire, is a new infrastructure project (SCPX). This monument was revealed on 182 km. pipeline route before the start of construction works on the territory of the monument were carried out urgent archaeological excavations.

Among the hundreds of samples of artefacts during the excavation of an important place occupied by fragments of pottery. Among the ornaments of the dishes made mainly quality and high craftsmanship, particularly stood out shards of glazed pottery such as vases, plates and bowls. The surface of glazed pottery ornamented with multi coloured, floral and geometric patterns, indicating a high artistic taste of the masters - manufacturers of utensils.

Excavations in the settlement Amirarkh prove the existence here during the period of settlement of rural type. The nature of the cultural layer, and identified the remains of material culture point to the monument belongs to the settlements of rural type with a simple layout and a wide portion.



***Şəkil 1.*** *Gil çıraq*




***Şəkil 2-5.*** *Küpə və bardaq tipli gil qablara məxsus fraqmentlər*




***Şəkil 6-8.*** *Bardaq, küpə və kuzə tipli gil qablar*



***Şəkil 9.*** *Gil qazan fraqmenti*




***Şəkil 10-19.*** *Şirli boşqab, kasa və xeyrə fraqmentləri*